# Azərbaycan Basketbol Federasiyası

## Məşqçilərin fəaliyyətinə dair TƏLİMAT

## I. Məqsəd və əhatə dairəsi

### Maddə 1.1. Məqsəd

(1) Bu Təlimat klublarda fəaliyyət göstərən və ya fəaliyyət göstərəcək basketbol məşqçilərinin iş prinsiplərini, hüquq və vəzifələrini, habelə fəaliyyət qaydalarını tənzimləmək məqsədilə hazırlanmışdır.

### Maddə 1.2. Əhatə dairəsi

(1) Bu Təlimatın tələbləri Azərbaycan Basketbol Federasiyasının (ABF) qeydiyyatından keçmiş bütün basketbol məşqçilərinə və onlarla xidmət (və ya əmək) müqaviləsi bağlamış müvafiq klublara şamil edilir.

## II. Ümumi müddəalar

### Maddə 2.1. Fəaliyyət sahələrinin müəyyən edilməsi

(1) Məşqçilərin çalışa biləcəyi liqalar və onların fəaliyyət göstərəcəkləri konseptual sahələr Azərbaycan Basketbol Federasiyası (ABF) tərəfindən müəyyən olunur.

### Maddə 2.2. Lisenziya tələbləri və komandada təmsilçilik

(1) Basketbol yarışlarında fəaliyyət göstərən bütün kateqoriyalar üzrə məşqçilərin müvafiq lisenziyaya malik olması məkündür.
(2) Lisenziyaların qüvvədə olma müddəti hər növbəti mövsümün əvvəlində müəyyən olunmuş üzvlük haqqı (rüsumu) ödənilməklə uzadılmalı (təsdiqlənməli) və yenilənməlidir.
(3) Cari mövsüm üçün lisenziyası olmayan və ya lisenziyasının qüvvədə olma müddəti uzadılmayan məşqçilər həmin mövsüm ərzində heç bir kateqoriyada və liqada fəaliyyət göstərə bilməzlər.
(4) Vətəndaşlığından (Azərbaycan Respublikasının vətəndaşı və ya əcnəbi) asılı olmayaraq, hər bir məşqçi eyni mövsümdə və eyni zaman kəsiyində, eyni kateqoriyada yalnız bir (1) komandada fəaliyyət göstərə bilər.

### Maddə 2.3. Lisenziyanın statusunun dəyişdirilməsi ("Aktiv" və "Passiv" statuslar)

(1) Məşqçilərin cari mövsümdə fəaliyyət göstərmələri üçün federasiya tərəfindən təşkil edilən ən azı bir (1) məşqçilik seminarında iştirak etmələri və üzvlük prosedurlarını tamamlamaları tələb olunur (III səviyyəli "A" kateqoriyası daxil deyil).
(2) "B" və "C" kateqoriyalı məşqçilər üçün seminarda iştirak məcburi, seminarın yekun imtahanında iştirak isə könüllüdür.
(3) Bu maddənin 1-ci və 2-ci hissələrinin tələblərinə cavab verməyən məşqçilərin lisenziyaları "Passiv Lisenziya" statusu alır və onların komandalarda məşqçilik etmək hüququ müvəqqəti olaraq məhdudlaşdırılır.

ABF 2026/2027

(4) "Passiv Lisenziya" statusu daşıyan məşqçilər təkmilləşdirmə seminarında iştirak etdikdən və lisenziyaları federasiya tərəfindən təsdiqləndikdən sonra "Aktiv Lisenziya" statusu alaraq fəaliyyətlərini bərpa edirlər.
(5) III səviyyəli ("A" kateqoriyası) məşqçilik lisenziyası və ya sertifikatı olan şəxslərin "Aktiv Lisenziya" statusu əldə etməsi üçün yalnız müvafiq üzvlük prosedurlarını tamamlamaları kifayətdir.

**Maddə 2.4. Liqa və vəzifə bölgüsü**

(1) Məşqçilərin lisenziya kateqoriyalarına əsasən mövsüm ərzində hansı liqalarda və hansı vəzifələrdə (baş məşqçi, köməkçi məşqçi və s.) fəaliyyət göstərə biləcəyi bu Təlimatın "Əlavə 1"ində tənzimlənir.

**Maddə 2.5. Müqavilə öhdəliyi**

(1) Azərbaycan Basketbol Liqasının (ABL) Çempionatında fəaliyyət göstərən baş məşqçilər və köməkçi məşqçilər üçün klubla rəsmi müqavilənin bağlanması məcburidir.
(2) Digər aşağı və ya köməkçi liqalarda (AB2L, uşaq, həvəskar və s.) fəaliyyət göstərən məşqçilər üçün federasiya qarşısında rəsmi müqavilə öhdəliyi tələb olunmur.

**Maddə 2.6. İntizam sanksiyaları və cərimələr**

(1) ABL Reqlamentində nəzərdə tutulmuş bütün intizam qaydaları və cəza sanksiyaları (o cümlədən cərimə rüsumları) digər liqalarda (AB2L, ABL uşaq liqası, Uşaq Gənclər Basketbol liqası, Həvəskar liqası və ABF-in bayrağı altında keçirilən digər rəsmi yarışlar) fəaliyyət göstərən məşqçilərə də şamil edilir.
(2) ABL-dən fərqli olaraq, digər liqalarda fəaliyyət göstərən məşqçilərə qarşı tətbiq edilən maliyyə cərimələrinin məbləği ABL Reqlamentində müəyyən olunmuş müvafiq cərimə məbləğinin 50 %-i həcmində hesablanır.

**Maddə 2.7. Əcnəbi məşqçilərin fəaliyyəti**

(1) Azərbaycan Respublikasının vətəndaşı olmayan (əcnəbi) məşqçilər ABF bayrağı altında keçirilən yarışlarda məşqçilik fəaliyyəti ilə məşğul ola bilərlər. (2) Əcnəbi məşqçilərin yarışlarda iştirak edə bilməsi üçün aşağıdakı 3 (üç) sənəddən ən azı birinin olması məcburidir:

- Azərbaycan məşqçilik lisenziyası; və ya
- Mənsub olduğu ölkənin səlahiyyətli qurumu tərəfindən verilmiş rəsmi sənəd (yalnız bir yarış mövsümü üçün keçərlidir); və ya
- FİBA tərəfindən verilmiş rəsmi məşqçilik sertifikatı (lisenziyası).

(3) Əcnəbi məşqçinin bu maddənin 2-ci hissəsində qeyd olunan sənədlərdən hansını təqdim etməsindən asılı olmayaraq, o, bu Təlimatın IV hissəsində müəyyən edilmiş əcnəbi məşqçilər üçün illik üzvlük rüsumunu tam həcmdə ödəməlidir və bu ödənişdən azad edilmir.

**Maddə 2.8. Keçmiş idmançılar üçün lisenziya imtiyazları**

(1) Azərbaycan Respublikasının milli komandalarında ən azı 10 (on) rəsmi oyun keçirmiş və ya FİBA-ya üzv ölkələrin yüksək liqalarında lisenziyalı basketbolçu kimi ən azı beş (5) il çıxış

ABF 2026/2027

etmiş şəxslər, müvafiq təsdiqedici sənədlərlə müraciət etdikdə, birbaşa "C" kateqoriyalı məşqçilik lisenziyası əldə etmək hüququ qazanırlar.

(2) Bu maddənin 1-ci hissəsində qeyd olunan şəxslər "B" kateqoriyalı məşqçilik lisenziyası əldə etmək istədikdə, ABF tərəfindən təşkil edilən seminarda bir (1) dəfə iştirak etməli və seminarın yekun imtahanından uğurlu (keçid) nəticə əldə etməlidirlər.

**Maddə 2.9. Ali təhsilli mütəxəssislər üçün lisenziya şərtləri**

(1) Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının, eləcə də digər ali təhsil müəssisələrinin "Basketbol məşqçiliyi" ixtisasını bitirmiş şəxslərin məşqçilik seminarında iştirakı məcburi deyil.
(2) Lakin həmin şəxslərin müvafiq kateqoriya əldə edə bilmələri üçün federasiya tərəfindən təşkil olunmuş məşqçilik seminarının yekun imtahanında iştirak etmələri və müvafiq keçid balını toplamaları şərtdir.

**Maddə 2.10. Lisenziya almaq istəyən namizədlərə dair minimum tələblər**

(1) Məşqçilik təlimlərinə (seminarlarına) qatılacaq və lisenziya alacaq namizədlər aşağıdakı tələblərə cavab verməlidirlər:

- Ən azı tam orta təhsilə malik olmaq;
- 18 yaşını tamam etmək;
- İdman və məşqçilik karyerası ərzində son 3 (üç) ildə idman qurumları tərəfindən birdəfəlik 6 (altı) aydan çox və ya ümumilikdə 2 (iki) ildən çox müddətə diskvalifikasiya (cəza) edilməmək;
- Qəsdən törədilmiş cinayətlərə görə 1 (bir) ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmamaq;
- Eşitmə qüsuru olan şəxslər işarə dili ilə ünsiyyət qura bildikdə və ya müvafiq tibbi cihaz vasitəsilə eşitmə qabiliyyətinə malik olduqda, məşqçilik lisenziyası üzrə təlimlərdə iştirak edə bilər və sertifikat ala bilərlər.

(2) Məşqçilik seminarlarında iştirak etmək üçün tələb olunan sənədlər:

1. Şəxsiyyət vəsiqəsinin surəti;
2. Rəngli fotoşəkil (3x4 ölçüdə, 2 ədəd);
3. Təhsil haqqında sənədin (attestat və ya diplom) surəti;
4. Sağlamlıq vəziyyəti haqqında tibbi arayış.

**Maddə 2.11. Lisenziya rüsumları**

(1) Cari mövsüm üçün lisenziya alaraq fəaliyyət göstərmək istəyən məşqçilər üçün lisenziya (üzvlük) rüsumunun məbləği hər mövsümün əvvəlində ABF tərəfindən müəyyən edilir və rəsmi olaraq elan olunur.

**Maddə 2.12. Hüquqi və etik məsuliyyət**

(1) Məşqçilər fəaliyyət göstərdikləri müddət ərzində Azərbaycan Respublikasının qanunvericiliyinə, normativ-hüquqi aktlara, idman etikası qaydalarına, eləcə də FİBA tərəfindən tətbiq edilən dürüst oyun (*Fair-Play*) və Davranış Məcəlləsinin (*Code of Conduct*) qaydalarına ciddi şəkildə riayət etməlidirlər.

ABF 2026/2027

**Maddə 2.13. Kateqoriyalararası keçid və kateqoriyanın qüvvədən düşməsi**

(1) Məşqçilərin kateqoriyalararası keçidi hər mövsümdə iki dəfədən çox olmayaraq təşkil edilən məşqçilik seminarlarının yekununda namizədlərin topladıqları imtahan ballarına uyğun olaraq tənzimlənir.
(2) Ardıcıl iki (2) mövsüm ərzində seminarlarda iştirak etməyən və federasiya üzvlüyünü yeniləməyən məşqçilərin mövcud kateqoriyası bir pillə aşağı səviyyəyə endirilir.

**Maddə 2.14. İmtahan nəticələrindən şikayət verilməsi (Apellyasiya)**

(1) Məşqçilik seminarının yekununda keçirilən imtahanın gedişatından və ya qiymətləndirmə nəticələrindən narazı qalan namizədlər nəticələr elan olunduğu gündən etibarən 15 (on beş) təqvim günü ərzində ABF-ə yazılı şəkildə apellyasiya (etiraz) ərizəsi ilə müraciət edə bilərlər.

## III. Yekun müddəalar

**Maddə 3.1. Təlimatda nəzərdə tutulmayan halların tənzimlənməsi**

(1) Bu Təlimatın icrası zamanı yaranan, lakin bu sənədlə birbaşa tənzimlənməyən və ya nəzərdə tutulmayan hallarla bağlı qərarların qəbul edilməsi ABF-in Məşqçilər (və ya Tədris) Şurasının təklifi əsasında İdarə Heyətinin müstəsna səlahiyyətinə aid edilir.

**Maddə 3.2. Sənədlərin arxivləşdirilməsi və mühafizəsi**

(1) Məşqçilərin lisenziyalaşdırılması, qeydiyyatı və müqavilə əməliyyatları ilə bağlı bütün kargüzarlıq işləri Federasiya tərəfindən həyata keçirilir və müvafiq sənədlər Federasiyanın məsul struktur bölməsində mühafizə olunur.
(2) Məşqçilərə aid sənədlər son 5 (beş) yarış mövsümü ərzində Federasiyanın arxivində kağız daşıyıcılarda saxlanılır.
(3) Saxlanma müddəti 5 (beş) ildən artıq olan sənədlər rəqəmsallaşdırıldıqdan (elektron arxiv bazasına köçürüldükdən) sonra onların kağız daşıyıcıdakı əslləri (rəsmi xidmət və ya əmək müqavilələri istisna olmaqla) müəyyən olunmuş qaydada arxivdən çıxarılaraq məhv edilir.
(4) Sənədlərin bu maddənin 3-cü hissəsinə uyğun olaraq elektronlaşdırılması və kağız əsllərinin məhv edilməsi prosesi ilə bağlı klublar, məşqçilər və ya hər hansı üçüncü tərəf Federasiyaya qarşı heç bir hüquqi və ya maddi tələb irəli sürə bilməzlər.

## IV. Üzvlük rüsumları və ödəniş qaydaları

**Maddə 4.1. Üzvlük rüsumunun ödənilməsi öhdəliyi**

(1) Məşqçilik fəaliyyətinin davamlılığının təmin edilməsi və müvafiq yarış mövsümü üçün lisenziyanın təsdiqlənməsi (aktivləşdirilməsi) məqsədilə hər bir məşqçi, kateqoriyalar üzrə müəyyən edilmiş illik üzvlük rüsumunu tam həcmdə ödəməlidir.
(2) Azərbaycan Respublikasının vətəndaşı olmayan (əcnəbi) məşqçilər, mənsub olduqları ölkənin etibarlı lisenziyasına və ya FİBA-nın rəsmi lisenziyasına (sertifikatına) malik olub-olmamasından asılı olmayaraq, bu Təlimatla müəyyən olunmuş vahid illik üzvlük rüsumunun ödənilməsinə tabedirlər və bu rüsumdan azad edilmirlər.

**Maddə 4.2. İllik üzvlük rüsumlarının məbləği**

(1) Lisenziya kateqoriyaları və vətəndaşlıq statusuna görə müvafiq yarış mövsümü üçün illik üzvlük rüsumlarının məbləği aşağıdakı cədvələ uyğun olaraq müəyyən edilir:

ABF 2026/2027

| Məşqçinin Statusu / Lisenziya Kateqoriyası | İllik Üzvlük Rüsumunun Məbləği |
|---|---|
| **"C" Kateqoriyalı məşqçilər** (Azərbaycan vətəndaşları üçün) | 50 (əlli) AZN |
| **"B" Kateqoriyalı məşqçilər** (Azərbaycan vətəndaşları üçün) | 100 (bir yüz) AZN |
| **"A" Kateqoriyalı məşqçilər** (Azərbaycan vətəndaşları üçün) | 150 (bir yüz əlli) AZN |
| **Əcnəbi (xarici vətəndaş) məşqçilər** (Kateqoriyadan asılı olmayaraq) | 250 (iki yüz əlli) AZN |

(2) Azərbaycan Respublikasının vətəndaşı olmayan məşqçilər üçün illik üzvlük rüsumu daxili kateqoriyalar üzrə diferensiasiya (fərqləndirmə) edilmir.

(3) Azərbaycan Basketbol Liqasında (ABL) fəaliyyət göstərən əcnəbi məşqçilərin üzvlük rüsumunun məbləği və ödəniş şərtləri ABL Əsasnaməsi ilə tənzimlənir. ABL Əsasnaməsinin norması bu Təlimatın müvafiq bəndinə nisbətdə üstün hüquqi qüvvəyə malikdir.
(4) Azərbaycan Respublikasının fəxri adı olan “Əməkdar məşqçi” statusuna malik basketbol məşqçiləri, lisenziya kateqoriyasından asılı olmayaraq, illik üzvlük rüsumunun ödənilməsindən tam azaddırlar.

**Maddə 4.3. Toplanmış rüsumların təyinatı**

(1) Bu Təlimat çərçivəsində məşqçilər tərəfindən ödənilən illik üzvlük rüsumları yalnız lisenziyanın aktiv saxlanılması funksiyasını daşımır, həm də birbaşa olaraq məşqçilərin peşəkar inkişafı, praktiki təlimlərin, metodiki seminarların təşkili və tədris-metodiki bazanın rəqəmsallaşdırılması məqsədlərinə yönəldilir.

ABF 2026/2027

**Əlavə 1**

| Kateqoriya | Vəzifə | Milli (kişi, qadın) | Milli (Gənclərdən ibarət yığma) | ABL | AB2L | QBL | UGBL | Digər liqalarda |
|---|---|---|---|---|---|---|---|---|
| **1. Kateqoriya (C)** | Baş məşqçi | | | | | | | ✓ |
| | Köməkçi məşqçi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| **2. Kateqoriya (B)** | Baş məşqçi | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| | Köməkçi məşqçi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| **3. Kateqoriya (A)** | Baş məşqçi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| | Köməkçi məşqçi | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |

**Qeyd:** Əlavə 1 də göstərilən tələblər 2026-2027 mövsümünün sonuna qədər qüvvədədir. (31.07.2027)

ABF 2026/2027